# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№022** **24 fevral 2020-ci il**

**Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 05.02.2020-cu il tarixli 34 nömrəli Sərəncamına və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə" nin 4.1.22-ci maddəsinə əsasən Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün rayon miqyasında yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün rayon miqyasında yüksək səviyyədə keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə təşkilat komissiyası yaradılsın:

**Komissiyanın sədri:**

| | |
|---|---|
| A.M.Məmmədov | Rayon İcra hakimiyyətinin başçısı |

**Üzvləri:**

| | |
|---|---|
| M.X.Əkbərov | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri |
| T.A.Güləliyeva | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri |
| İ.Q.Bəhrəmov | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi müdirinin müavini |
| E.E.Mikayılov | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri |
| E.Babayev | Rayon Polis Şöbəsinin rəisi |
| Ə.Qayıbov | Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsini əvəz edən |
| H.Şabili | İsmayıllı Regional Mədəniyyət və Turizm Şöbəsinin Qobustan rayonu üzrə nümayəndəsi |
| Q.Əkbərov | Rayon Gənclər və İdman İdarəsinin rəisi |

| | |
|---|---|
| M.Əhədov | İcra hakimiyyəti başçısının Qobustan şəhər İƏD üzrə nümayəndəsi |
| R.Şahbazov | “Qobustan” qəzetinin baş redaktoru |
| Z.Cəfərov | Qobustan şəhər R.Behbudov adına Uşaq İncəsənət məktəbinin direktoru |
| M.Kuryayev | Kommunal Müəssisələr Kombinatının müdiri |
| E.Hüseyn | Qobustan Rayon Mərkəzi Xəstəxanasının baş həkimi |

2. Xocalı faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).

3. Tapşırılsın Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri T.A.Güləliyevaya və RİHBA-nın Sektor müdiri- baş mühasibi F. Muslumova sərəncamdan irəli gələn vəzifələri yerinə yetirsinlər.

**Qobustan rayonu İcra hakimiyyətinin başçısı:** **A.M.Məmmədov**